KAŞEYİN

(Kiçik povest)



ELÇİN

... sonra dan yerinin şəfəqləri sökülməyə başladı və bu dəfə də hələ səhərin gözü açılmamış – saat 5 radələrində – kişi sövq-təbii olaraq, ela yuxuda ikən səksəkə içində xoruzun o bədnam səsini gözləməyə başladı və doğrudan da on-on beş saniyədən – bu saniyələr yuxuda çox uzun çəkirdi – sonra qart bir xoruz banı yenə bütün həyət-bacanı, o cümlədən də Molla Zeydullagilin şüşəbəndini başına götürdü.

Sübh tezdənin bu qartımış xoruz banı kişiyə o qədər təsir etdi, onu o qədər yandırıb-yaxdı ki, özünü saxlaya bilməyib, dodaqaltı donquldaya-donquldaya xoruzun da, onun yiyəsinin də qarasına bir-iki bədəbə söz dedi.

Düzdü, kişi dodaqaltı donquldadı, amma arvadı Xeyransa həmişəki kimi, qazdan ayıq idi, ela yuxuda da onun donqultusunu eşitdi və gözünü açmadan yuxulu-yuxulu mızıldaya-mızıldaya:

– A kişi, əyib döyül sənüncün?- dedi.- Özün də mollasan...- Sonra o biri böyrü üstə çevrilib, ayıq və gözəl yuxusuna davam etdi.

Molla Zeydulla eləcə kal-kal dikelib döşəkdə oturaraq, dərindən nəfəs aldı və qapqara qıllı barmaqları ilə alnını ovuşdura-ovuşdura, söyüşcül adam olmadığı üçün, qəflətən ağzından çıxan o sözlərin xəcalətli çəkə bilməyəcəyini hiss etdi, bu xoruz, gör, onu nə günə salıb ki, ağzından bu cür sözlər çıxır, özü də arvadın yanında... Sonra arxasını ərinə çevirib böyrü üstə yatan Xeyransaya baxdı və bu səhər də təskinliyi onda tapdı ki, xoruz banı, heç olmasa, arvadın yuxusuna haram qatmır, Xeyransa doyunca yata bilir. O mənfur xoruz banı doğrudan da Xeyransanın vecinə deyildi, yuxuda bu bana qədər nə görmüşdüsə, eləcə də həmin yuxunun ardını görürdü və Molla Zeydulla part-part gərnəşgərnəşə sinə dolusu esnədi.

Neçə müddət idi ki – xüsusən bu cırhacır isti yay aylarında – Molla Zeydulla sübh tezdən əməlli-başlı bir xoruz meşəşqadı yaşayırdı və gündən-günə daha da qartan o mənfur qart banın sayəsində səhər çağlarının gözəliyindən əvvəllər olduğu kimi ləzzət ala bilmirdi.

Zeydulla sovet vaxtı orta məktəbdə otuz ildən artıq idman müəllimi işləyib, təqaüdə çıxmışdı, Sovet İttifaqı dağılandan sonra isə mollalıq etməyə başlamışdı, amma üreyinin dərinində o, nə idmançı, nə də molla idi, o – şair idi. Yalnız bu mənada yox ki, şeir yazırdı, sadəcə, özünü şair təbəlti bir insan hesab ,edirdi və onun bu fikrində heçişət var idi. Uzun ömrü boyu səhər-səhər qonşunun – o xoruzun sahibi Zərbala Molla Zeydulla ilə bari qonşusu idi – xoruz banı ilə yox, öz xoşu ilə yuxudan oyanıb, elə yorğan-döşəyin içindəcə quşların səsinə, dənizin uğultusuna, küləkli günlərdə küləyin uyıltısına qulaq asmaq yaşının bu çağında saqqalı hələ adda-budda ağarmış sifətindən ağlamlıq yağan bu iri sümüklü kişinin gündəlik həyatının ən sevimli çağları idi.

Düzdür, Zeydulla hələ əllinci illərdə idman texnikumunu bitirib, otuz ildən artıq bir müddət Bakıdakı məktəblərdən birində idman müəllimi işləmişdi və hər gün səhər tezdən kəndin aşağı başındakı stansiyada elektrik qatarına minib Bakıya gedirdi, axşam da kəndə qayıdırdı, ancaq onun əsil şəkərі idmanın tədrisi yox, klassik poeziya, bu poeziyanın obrazlar aləmi idi, islam tarixi və fəlsəfəsi idi, özbaşına öyrəndiyi ərəb və fars dillərini də babat bilirdi.

Abşeröndakı bu kənd ilə Bakı arasında məsafə elektrik qatarı ilə 35 dəqiqəlik yol idi və Zeydulla müəllim bu 35 dəqiqəlik yolu gedəndə də, qayıdanda da şagirdlərin gələcək idman nailiyyətləri barədə, hətta onların sağlamlığı barədə də yox, Füzuli misralarının, Xeyyam rübailərinin sirri-sehri barədə düşünürdü və vicdanlı adam olduğu üçün bəzən içində xəcalətə bənzər bir hiss də yaşayırdı ki, özünün pedaqoji fəaliyyətinə bu dərəcədə biganədir.

Ancaq nə etmək olardı, Allah həməi bir cürə xəlq edir və yəqin elə bütün bunlara görə də sovet hakimiyyəti çökəndən sonra onun mollalığa başlamağını kənd camaatı təbii qəbul etmişdi, Molla Zeydulla təkcə öz kəndlərində yox, qonşu Abşeron kəndlərində də nüfuz sahibi olan bir şəxs, tanınmış din xadimi idi.

Onun yaşı xeyli olsa da, çox cavan qalmışdı və hamı bunu kişinin içki içməməyi, siqaret çəkməməyi, ehsan məclislərində açıq-aşkar görünən toxgözlüyü ilə, bazilərі də idmanla yozurdu. Düzdür, Molla Zeydulla heç vaxt səhərlər idman etmirdi, qalan yozumlarda isə, şübhəsiz ki, haqiqət var idi, amma belə saz qalmağının əsl səbəbini onun özü hamıdan yaxşı bilirdi: Molla Zeydulla özünü çox ürəyi təmiz adam hesab edirdi, bu insanda paxıllıq deyilən şey yox idi və o, təbiətdən həzz almağı bacarırdı, Allaha da, dinə də sidqürəkdən bağlı idi, tez-tez beynində Nizaminin, Hafizin, Mövlanə Ruminin müdrik misraları səslənirdi və kişi belə hesab edirdi ki, sazlığının da əsil səbəbi elə bunlardır.

Molla Zeydullanın doğma və əziz bir sirri də var idi və bu sirri göydə Allahdan, yerdə isə Xeyransadan və hələ Kəfərovdan başqa heç kim bilmirdi, çünki Molla Zeydulla bu sirri aşkar etməkdən utanırdı – nə üçün utanırdı? – bu bir poetik utancaqlıq idi və bu hissi sözə ilə ifadə etmək mümkün deyildi.

Məsələ burasında idi ki, son üç-dörd ildə birdən-birə göydən kişiyə vəhy gəlirdi və özündən asılı olmayaraq qələmi əlinə alıb, o vəhyin gətirdiyi misraları kağıza köçürürdü və bələlikə, klassik bir qəzəl nümunəsi yaranırdı. Bu qəfil yaradıcılıq prosesini Xeyransadan gizli saxlamaq mümkün deyildi və Xeyransa bilirdi ki, Molla Zeydulla şeir yazır, amma bu şeirlərin içində nə var idi? – bilmirdi, çünki kişi bu şeirləri ona oxumurdu və Xeyransanın özünün də buna mənəvi ehtiyacı yox idi.

Xeyransanın bişirdiyi düşbərə-qutab, küftə-bozbaş, fisincan-plov bütün kənddə məşhur idi və Molla Zeydulla arvadının bişirdiyi o gözəl xörəkləri həvəslə yeyəndə, bu, bəlkə də, ondan, yəni Molla Zeydulladan çox, Xeyransanın özünə ləzzət edirdi. Bir sözlə, Xeyransa yalnız onu bilirdi ki, Zeydulla şeir yazır və elə bunun özü kifayət idi ki, Xeyransa ərinin həm də şair olmağı ilə fəxr etsin.

Kənarda bu qəzəllərdən yalnız Həkim Cəfərov xəbərdar idi, çünki Molla Zeydulla ilə uşaqlıq yoldaşı idilər və Həkim Cəfərov kənddə təmkinli, ağzıbütöv və savadlı bir adam kimi tanınırdı, buna görə də Zeydulla öz ürək sirrini yalnız ona etibar edib, qəzəllərini hərdən yalnız ona oxuyurdu. Düzdür, Həkim Cəfərov uzun müddət Rusiyada yaşamışdı və bir az ruslaşmış adam idi, qəzəldəki ərəb və fars sözlərinin çoxunu başa düşmürdü, ancaq Molla Zeydulla onu başa salırdı, həm də bu işi çox həvəslə görürdü, qəzəllərini bərkdən oxumaq, bu qəzəllərdəki mətləbi Həkim Cəfərova izah etmək mollanın özünü dübarə cuşa gətirirdi...

... Və son vaxtlar Zərbalanın xoruzunun bu qart banı Molla Zeydullanın rahat və klassik poeziya məhəbbəti sayəsində mənən zəngin həyatına əməlli-başlı haram qatmışdı: qəzəllərini bərkdən oxumaq, bu qəzəllərdəki mətləbi Həkim Cəfərova izah etmək mollanın özünü dübarə cuşa gətirirdi...

... Və son vaxtlar Zərbalanın xoruzunun bu qart banı Molla Zeydullanın rahat və klassik poeziya məhəbbəti sayəsində mənən zəngin həyatına əməlli-başlı haram qatmışdı: qəzəllərini yalnız öz kəndlərində deyil, qonşu kəndlərdə də hörmətli adamların yas məclislərinə dəvət olunurdu və həmin məclisləri aparırdı, səhərlər isə o xoruz banına görə doyunca yata bilmirdi, bütün günü yuxusuz olurdu və bu da onun adət etdiyi gündəlik həyatına, güzərənına açıq-aşkar xələl gətirirdi. Xüsusən də bu yay aylarında ki, otaq isti olduğu üçün, Xeyransa yorğan-döşəyi şüşəbəndə salırdı – bu da onların az qala əlli illik birgə həyatlarının bir ənənəsi idi – o xoruz qartımış səsiylə, elə bil, qonşu həyətdə yox, kişinin qulağının dibində banlayırdı, Molla Zeydulla da yuxudan oyanıb, daha yata bilmirdi.

Xeyransa bayaqkı kimi yüngülcə oyanıb, tezədən fil yuxusuna gedirdi, ancaq Molla Zeydulla nə illah edirdi, yata bilmirdi, gözəl quş səsi, ya da ki, dəniz uğultusu ilə yox, vaxtsız xoruz banı ilə ayağa qalxıb, həmişəki kimi məşhur mütəfəkkirlərin müdrik kəlamlarını, böyük Şərq şairlərinin gözəl poetik misralarını xatırlamaq əvəzinə, özündən asılı olmayaraq, sabahkı gün də səhərin gözü açılmamış xoruz banına oyanacağını fikirləşirdi və əvvəllər olduğu kimi, çay-çörəkdən əvvəl həyətə düşüb, fikrindəki o gözəl misralar ilə bir yerdə, ağacların, gül-çiçəyin arası ilə gezməyə də həvəsi olmurdu, şüşəbəndə oturub, təsbehini çevirə-çevirə Xeyransanın yuxudan oyanmağını gözləyirdi ki, qalxıb səhər çay-çörəyini hazırlasın.

Bütün bunlar azmış kimi, belə vaxtlarda Molla Zeydullanın ağlına həyatın mənası ilə, ölümlə, axirətlə bağlı cürbəcür bədbin fikirlər girirdi və o mənfur xoruz banı sayəsində sübh tezdən belə bədbin fikirlərə düçar olması kişinin qanını daha da qaraldırdı.

Və burası da varıydı ki, sübh tezdənin bu qartmış xoruz banından sonra o vəhy də daha gəlmirdi...

Zərbalanın xoruzu bir neçə ayın ərzində təkcə bu kənddə yox, bütün ətraf kəndlərdə məşhur olmuşdu və Zərbalanın özü də elə bu xoruza görə məşhurlaşmışdı, çünki bu xoruzun sahibi olmaqdan savayı Zərbalanın məşhurluğu üçün başqa bir səbəb yox idi.

Dünyanın hansı rəngini desəydin, Kaşeyin – Zərbalanın xoruzunun – tüklərində, qanadlarının, uzun, dimdik və pırpızaq quyruğunun ləçəklərində tapmaq olardı və bu sağlam tüklər, ləçəklər də xüsusən gün işığında par-par parıldayaraq rəng alıb, rəng verirdi. Uzun boynunu elə dik tuturdu ki, elə bil, Allahın bacısı oğludur, bütün kürreyi-ərzə yuxarıdan aşağı baxırdı, tünd boz rəngli dimdiyi isə, xalis qartal dimdiyi idi, enli sinəsi, iri caynaqları var idi, uzun sözün qısası, Kaşey xoruz yox, dünyanın şəkkizinci möcüzəsi idi.

Kənddə kiminsə ağzından çıxmışdı, bu xoruza:

– Ala, bu Kaşeydi e, Kaşey!..- demişdi və bundan da sonra xoruzun adı həmişəlik Kaşey qalmışdı.

Kaşeyin ən qızğın azarkeşlərindən biri İstanbuldan gəlmiş və dəniz kənarında təzə salınmış "Ləzzət – 1" İstirahət Mərkəzində stomotoloq həkim işləyən Feyzi bəy idi və Feyzi bəy ilk dəfə Kaşeyi meydanda görəndə:

– "Kaşey" nə dəmək?- soruşmuşdu və həmişə onun suallarına həvəslə cavab verən kənd cavanları bu dəfə də cidd-cəhdlə Anadolu lehcəsində danışmağa çalışaraq, stomotoloqa başa salmışdılar ki, "Kaşey" rusların nağılında bir cadügərdir, əla kinosu da var, ona "Kaşey-bessmertniy" deyirlər, yəni "Ölməz Kaşey", çünki Kaşeyin ürəyi iynənin ucundadır, iynə yumurtanın içindədir, yumurta ördəyin qarnındadır, ördək də dovşanın qarnındadır, dovşan sandığın içindədir, sandıq da zırpı bir palıd ağacından asılıb, o zırpı palıd ağacının da yerini ancaq Kaşey bilir və onu göz bəbəyi kimi qoruyur.

Feyzi bəy bu cavabdan razı qalmışdı, Kaşeyin ürəyinin bu dərəcədə etibarlı bir yerdə saxlanması ona ləzzət etmişdi, çünki bu xoruz heçişətən də Kaşey deyilən o cadugər kimi bir şey idi, ona qalib gəlmək mümkün deyildi və Feyzi bəy yüz faiz əmin idi ki, Kaşey İstanbulda olsaydı Taksım xorузları arasında onun tayı-bərabəri olmazdı.

Məsələ burasında idi ki, Zərbalanın xoruzu, yəni Kaşey Abşeronun bu hissəsindəki əhali kəndlərində xoruz döyüşlərinin bir nömrəli qəhrəmanı idi və onun vuruşduğu xoruz döyüşlərinə o qədər adam yığışırdı ki, bu döyüşlərin köhnə azarkeşi olan qəssab Mirzəağa:

– Ala, Zərbala,- deyirdi.- Sən bu Kaşeyin qədrini bilginən!.. Sən öləsən, mən ömrümdə hələ bu qədər adam görməmişəm ki, xorузlarun tamaşasına yığışsun!..

Sovet vaxtı milisioner işləyən və kənddə xoruz döyüşlərinə yığılmış adamları qovalayan, mərc üçün pul yığmağa qoymayan, yığınları da kənddəki milis bölməsinə aparan (düzdür, onlara öyüd-nəsihət verəndən sonra azad edirdi), Sovet İttifaqı dağılandan sonra isə polis nəfəri olan və özü də xoruz döyüşlərinin əməlli-başlı azarkeşinə çevrilmiş pəltək milisioner Səfər də müdrükanə görkəm alıb:

– Q-q-qədeş düz deyir!..- deyirdi.- Kaşeyin q-q-qədrini bil!..

Kaşey hər dəfə atılıb rəqibinə sarsıdıcı zərbə endirəndə döyüş meydançasını dövrəyə almış o tamaşaçılar bu zərbələrin təsiri ilə:

– Maşallah!..- deyirdi.

– Ala, bu xoruz döyül e, Taysondur, Tayson!..

– Sən öləsən, bu toyuq yumurtasundan yox e, qartal yumurtasundan çıxıb!...

TALEYİ

Kənddəki Epidomologiya Stansiyasının müdiri, hələ ki, seçilməsə də ruhdan düşməyib Azərbaycan Milli Məclisinə deputat seçkilərində üç dəfə dalbadal öz namizədliyini irəli sürüb, 1971-ci ildə ağırlıq qaldırmaq üzrə SSRİ çempionatında dördüncü yer tutmuş Müzəffər müellim özünü saxlaya bilməyib, elə bil, vuruşan Kaşey yox, Zərbala idi, qışqırırdı:

– Sağ ol, Zərbala!.. Afərin sənə!..

Əlbəttə, bu alqışlar Zərbalaya başucalığı gətirirdi, ancaq onsuz da onun içində böyük bir Kaşey qüruru var idi və Kaşeyin qədrini bilmək az idi, bu xoruz Zərbala üçün oğlu Gülbaladan sonra, dünyanın ən əziz, ən sevimli, ən dəyərli bir məxluqu idi.

Dörd yaşlı Gülbala Zərbala ilə Əminənin yeddi illik evliliklərindən sonra dünyaya gəlmiş ilk və bələ məlum olrdu ki, sonuncu övlad idi və əlbəttə, Kaşeyin timsalında Gülbalanın bəxti gətirmişdi, bu mənada ki, daha onların, yəni Zərbala ilə Əminənin uşaq üçün vitaminli ərzaqlar almaq problemi yox idi.

Xoruz döyüşlərindən əvvəl pulu kassirlik edən İbad dayıya verib mərc bağlayan azarkeşlər arasında kim ki, mərci udurdu, pulu kef ilə cibinə qoyurdu, uduzanlar isə Kaşeyə baxa-baxa:

– Haladır!.. deyirdilər.

Kaşey döyüşəndə udanların gəliri çox olmurdu, çünki əksəriyyət pulu Kaşeyin qələbəsinə qoyurdu, ancaq Zərbala qapı-qapı gəzib əğcaqanad, qarışqa, milçək, siçan əleyhinə dərmanlar satdığı vaxtlar heç yuxusuna da girməyəcək qədər pul qazanırdı və bu pullara görə hansı varlığa borclu olduğunu yaxşı bildiyi üçün, əvvəlcə bazara gedib Kaşeyə seçmə buğda, arpa, yarma, hətta bəzən – qazanc lap çox olanda – yarım kilo kişmiş alırdı və yalnız bundan sonra evin bazarlığını edirdi. Kaşeyin evə gətirdiyi Pul Zərbalagilə həftənin axırına, yəni gələn şənbəyə qədər bəs edirdi və növbəti həftədə də xərcləri Kaşeyin növbəti şənbədəki qələbəsi tamam-kamal təmin edirdi. Zərbalagil Kaşeydən sonra adam kimi yaşamağa başlamışdılar.

Döyüşdən sonra bəzən Kaşeyin pipiyi, saqqalı qanayırdı və Zərbala xoruzun yaralarına yod vura-vura açıq-aşkar bir fəxarətlə:

– Ala, – deyirdi.- Heç mənə ömründə bələ yod vuran olmayıb e-e-e!..

Kaşey də qart səsi ilə ərköyün-ərköyün qaqqıldaya-qaqqıldaya, elə bil, Zərbalanın dediklərini təsdiq edirdi. O indiyə qədər bir dəfə də məğlub olmamışdı və təkcə Zərbala yox, Abşeronun bu hissəsindəki xoruz döyüşü azarkeşlərinin hamısı yüz faiz əmin idi ki, heç vaxt da məğlub olmayacaqdı.

Cins döyüş xoruzları vardı ki, onların yumurtalarını Türkiyədən, Gürcüstandan, Ukraynadan, İrandan gətirib qırt düşmüş böyük anac toyuqların altına qoyurdular və yumurtadan çıxan kimi cücələri xüsusi təlimlə böyüdürdülər. Kənddə, görünür, Fidel Kastronu dünyanın ən güclü adamlarından biri hesab etdiklərinə görə, söz yayılmışdı ki, Kaşeyin yumurtası Kubadan gəlib.

– Ala, Zərbala, Kaşey doğrudan Kubadan gəlib?- soruşanda, Zərbala mattmat bu sual sahibinin üzünə baxıb, iki əlini də Kaşeyə tərəf uzadırdı:

– Ala, görmürsən begem?!.

Yəni Kaşeyin Kubadan gəlməsi, gün işığı kimi aydın bir şeydir də... Və əslində, Kaşeyin Kubadan gəlməsinə, elə bil, daha Zərbalanın özü də sidq-ürəkdən inanmağa başlamışdı.

Kaşeyin isə, aydın məsələdir ki, Kubaya heç bir dəxliyyəti yox idi və o vaxt ki, Zərbalanın arvadı Əminə:

– Toyuq qırt düşüb, getginən, bazardan beş-altı dənə yumurta alginən, onları da altına qoyaq.- demişdi, Ağarza da bazardan beş dənə təzə yumurta alıb gətirmişdi və Əminə də o yumurtaları öz yumurtaları olmayan, amma qırt düşmüş o həyət toyuğunun altına qoymuşdu, Kaşey də o yumurtaların birindən dünyaya təşrif buyurmuşdu.

Ancaq Kaşeyin bu hayat tarixçəsini Zərbala ilə Əminədən başqa heç kim bilmirdi və yəqin ki, heç vaxt da bilməyəcəkdi, çünki Zərbala nə qədər camildən Kaşeydən razı idi və yalnız ona görə yox ki, Kaşey evə əmalli-başlı pul gətirirdi – bu öz yerində, Əminənin xalası, İbad dayının arvadı Nisə xala demişkən, "Allah Kaşeyin canını sağ eləsin!"; ona görə ki, – Əminə üçün ən əsası da bu idi – Kaşey peyda olandan sonra, heç kimin ağlına sığmayan inanılmaz bir hadisə baş vermişdi – Zərbala birdən-birə içkini atmışdı.

Kaşeyə qədər hərdən elə ölüm-itimsiz axşamlar olurdu ki, öz kəndlərində də, ətraf kəndlərdə də yas məclisi qurulmurdu və belə gözəl axşamlarda Molla Zeydulla uzun illərdən bəri səliqə ilə yığıb düzəltdiyi şəxsi kitabxanasından seçib bir kitab götürürdü, ya klassik Şərq şairlərinin qəzəllərini, ya bu qəzəllərə yazılmış şərhləri, ya da keçmiş mütəfəkkirlərin müdrik kəlamlarını bir daha gözdən keçirirdi, sonra evdən çıxıb həyət-bacanı dolaşırdı, ürəyində bu dahiyanə poeziyaya, bu müdrik şərh və kəlamlara münasibətini kiminləsə bölüşmək ehtiyacı yaranırdı və həyət qapılarının ağzındakı skamyada otururaq, təkbaşına çay içə-içə, təsbehini də həmişəki kimi çevirə-çevirə öz-özünə deyinirdi:

– Camaatın qonşusu adam olur, otururb çay içirsən, söhbət edirsən, mənim də qonşum, buyur də – pyaniske...

Və doğrudan da, Kaşeyə qədər Zərbala "pyniskə Zərbala" idi və Əminə onun xəcalətindən nəinki çalışırdı dükan-bazara az getsin, hətta suyu da evdə qızdırıb çimirdi, çünki kənddəki hamama gedəndə də kənd arvadları onun gözəl əndamına baxaraq, hayıfsılanahayıfsılana: "Ağəz, bilmirsən begem ki, ya, kovxası gülüm olanın başına kişim olar? Hə? Nöş uşağı da götürüb, getmirsən atongilə? O pyaniskə sənün tayundu?.."- deyib, ağızlarına gələni danışırdılar. Əminənin anası da hərdən qızışıb gələndə özünü saxlaya bilməyib deyinirdi: "Xalx qız verib quda qazanır, biz də qız verib qada qazandıq, ay başuvuza dönüm süzün!.."

Həmin vaxtlar Əminə onsuz da həyatdan küskün idi və nəinki kəndin arvadlarını, heç anasını da başa salmağa həvəsi yox idi ki, əvvəla Zərbala onun gözünün ağı-qarası yeganə oğlunun – Gülbalanın atası idi, ikincisi də, siz nə bilirsiz ki, Zərbala əslində nəcə adamdır, Zərbalanın ürəyi necə ürəkdir və siz gecə yarısı Zərbalanın xəlvətcə yerindən qalxıb, təkbaşına metbəxdə otururb içkisiz-zadsız necə ağlamağını görmüsüz? Amma Əminə bunu görmüşdü, özü də bir dəfə yox, iki dəfə yox, Allah bilir neçə dəfə görmüşdü və düzdür, Zərbalanın bundan xəbəri yox idi, yəni Zərbalanın xəbəri yox idi ki, gecənin yarısı yuxudan oyanıb səssiz-küysüz mətbəxə gedəndə, taxta kətilə oturub siqaret çəkə-çəkə ağlayanda, Əminə də yuxudan qalxıb, qaranlıqda qapının ağzında dayanıb, gizlincə ona baxır və Zərbalanın bundan da xəbəri yox idi ki, həmin anlarda Əminəni də qəhər boğurdu.

Qəhər Əminəni bir də xüsusən o vaxtlar boğurdu, bir koma olub boğazına dirənirdi ki, Gülbalanı çimizdirəndə, ona təmiz yuyub ütüdləyi paltar geyindirəndə Zərbalanın o mənfur dərman torbasının qoxusu birdən-birə burnuna gəlirdi və Əminə özü də başa düşmürdü ki, niyə bu dəfə də o özü ağlamaq istəyir, niyə qəhər boğazına dirənib, onu boğur.

Və günlərin bir gözəl günü, elə ki, atası, anası məlum olmayan o diribaş cücə böyüyüb Kaşey oldu, həmin gözlənilməz hadisə də onda baş verdi, yəni Zərbala boynundan asılıb onu dənizin lap dibinə aparmaq istəyən arağın daşını atdı və dərman iyi verən o mənfur torbanı bir tərəfə tullayıb, bu tərəflərdəki Abşeron kəndlərində məşhur Kaşeyin sahibi oldu.

Zərbala Kaşeyə qədər yay aylarında həftədə bir dəfə, iki dəfə – bu, baxırdı, alış-verişə – səhər tezdən elektrik qatarına minib, gedib, Bakıdakı topdansatış mağazalarından ucuz qiymətə əğcaqanad, milçək, qarışqa, siçan əleyhinə, ağacların, güllərin, tərəvəzin xəstəliklərə əleyhinə dərmanlar alırdı, həmin mənfur torbasına yığıb, geri qayıdırdı, əvvəlcə qəssab Mirzəağanın kafesinə girib şəhər normasını – 150 qram arağını içirdi və bundan sonra müştəri axtara-axtara kəndin ətrafındakı bağ evlərini, Bakı varlılarının yeni tikdirdikləri villaları bir-bir gəzib dərmanları satmaqla məşğul olurdu, bundan soonrası isə həmişə dumanlı yadına gəlirdi, çünki dübarə qəssab Mirzəağanın kafesinə gedib ikinci 150 qramı içəndən sonra baş verənləri yaxşı xatırlamırdı. Qış aylarında isə əsas etibarilə balıqsatan alverçilərə kömək edirdi, yəni Bakıya gedib-gələn magistral yolun kənarında dayanıb, balıqçıların satmaq üçün ona verdikləri balıqları başının üstünə qaldıraraq, sürücülərə, sərnişinlərə satırdı və bu alverin qazancından pay götürürdü.

Və birdən-birə bu alçaq dünyada Kaşey peyda oldu.

Hər şey dəyişdi...

Hər şey dəyişdi, ancaq Zərbala Kaşeyə heç vəchlə gəlir mənbəyi kimi baxmırdı, o, bu xoruzu sidq-ürəkdən sevirdi və bu məhəbbət qarşılıqlı idi. Aydın məsələdir ki, Kaşeyin Zərbalanın əvvəlki həyatından xəbəri yox idi və Zərbala onu qucağına götürüb əzizləyəndə, xoruz üzünün o tərəfini, bu tərəfini Zərbalanın ovucunun içinə elə bir məhrəmlik, elə bir mehribanlıqla sürtürdü ki, elə bil, Abşeron xoruzlarının qorxunc qənimi o deyildi.

İstefaya çıxmış tibb xidməti polkovniki Cəfərov – kənddə hamı onu "Həkim" deyə çağırırdı; həkim çox idi, amma "Həkim" deyəndə, kənddə hamı bilirdi ki, söhbət Cəfərovdan gedir – axır vaxtlar öz səhhətindən narazı idi, tənəgəndəs olurdu, ayaqlarının, qollarının oynaqları ağrımağa başlamışdı və özü-özünü müalicə etsə də, axır vaxtlar tez-tez ürəyində rus dilində təkrar edirdi: "starost – ne radost", yəni qocalıq səfeh şeydir və bu dünyada gərək Molla Zeydulla kimi qafoman olasan ki, yaşının bu çağında sağlamlığının qeydinə qalmaq əvəzinə, başdanbaşa xolestrin olan yağlı qoyun əti yeyə-yeyə kosmos və internet əsrində güldən, bülbüldən, Leyli və Məcnundan mənasız şeirlər yazasan.

Həkim Cəfərov sovet vaxtı Sov.İKP üzvü kimi hər ay səliqə ilə üzvlük haqqını ödəyən, partiya biletinə sidq-ürəkdən ehtiram bəsləyən əqidəli – hər halda, ona belə gəlirdi – kommunist idi, ancaq 1990-cı il yanvarın 20-də Mixail Qorbaçovun əmri ilə guya anti-sovet üsyanını yatırmaq üçün Bakıya qoşun yeridiləndən və o qoşun da günahsız insanları güllələrnə tutandan sonra protest əlaməti olaraq partiya biletini atmışdı.

Düzdür, Həkim Cəfərov bir müddətdən sonra partiya biletini geri götürdü, amma daha əvvəlki kə əqidəli kommunist deyildi. Sonra Sovet İttifağı dağıldı və məlum oldu ki, sən demə, KQB, təkpartiyalıq, kommunizm ideaları – hamısı boş şey imiş, bir nəfər – Qorbaçov – o boyda dövləti dağıda bilərmiş. Ancaq illər keçdikcə, deyəsən, Həkim Cəfərov kommunizm buxovlarını qırmış azad dünyada yavaş-yavaş təzədən əqidəli kommunist olmağa başlayırdı, get-gedə ona elə gəlirdi ki, uşaq çağlarında – 1940-ın sonu, 50-nin əvvəllərində – rəhmətlik nənəsi Nikolay vaxtı, yəni Sovet İttifaqından əvvəlki dövr haqqında gözəl xatirələr danışdığı kimi, o da nəvə-nəticələrinə sovet dövrü haqqında gözəl xatirələr danışacaq.

Bunu fikilləşəndə Həkim Cəfərov öz-özünə gülümsəyirdi, çünki başa düşürdü ki, bunun bu ehtimalı heç vaxt baş tutmayacaq, amma ona görə yox ki, Sovet dövrü haqqında gözəl xatirələr danışmaq mümkün deyildi – lap yaxşı mümkün idi və azad kapitalist dünyasını ki, bələ görürdü, get-gedə o xatirələr daha da zənginləşəcəkdi – ona görə ki, iki övladından biri – qızı Yekatrina – isveç Bartolda erə getmişdi və İsveçdə yaşayırdı, oğlu Aleksandr isə ailəsi ilə birlikdə Sankt-Peterburqda yaşayırdı və Həkim Cəfərov yaxşı başa düşürdü ki, onun haçansa oturub nəvələrinə şirin-şirin xatirələr danışmaq perespektivi sıfıra bərabərdir.

Məsələ burasında idi ki, Həkim Cəfərov 1955-ci ildə Bakıda orta məktəbi bitirib, Leninqradda Hərbi Tibb Akademiyasına daxil olmuşdu, oranı bitirdikdən sonra isə Yaroslavldan tutmuş Vladivostokacan Rusiyanın – nəhəng Rusiyanın – müxtəlif bölgələrindəki hərbi dairələrdə qulluq etmişdi və bir də düz 33 ildən sonra polkovnik rütbəsində istefaya çıxıb arvadı Anna Viktorovna ilə birlikdə Bakıya qayıtmışdı.

Yüksək ixtisallı həkim kimi bir müddət Bakıdakı xəstəxanalardan birində İşlədi, sonra birdəfəlik təqaüdə çıxıb, kənddə boş qalmış ata-baba mülkünə köçdü və burada da kənd camaatı hərdənbir onu xəstə üstünə çağırırdı. Qətiyyən tamahkar adam olmadığı üçün, Həkim Cəfərov heç vaxt pul söhbəti etməzdi və xəstəyə baxandan sonra hansı xəstə sahibi cibinə nə qoyurdusa, hansı bərxəyişi verirdisə, onunla da kifayətlənirdi. Eyni zamanda sahil boyu salınmış İstirahət Mərkəzlərində, o cümlədən "Cənnət-mək"an"da qeyri-rəsmi məsləhətçi idi, yəni ştatda deyildi, maaş almırdı, ancaq turistlərin, ümumiyyətlə, burada istirahət edənlərin səhhətində hansısa bir problem yarananda, onlar Feyzi bəyin tövsiyəsi ilə Həkim Cəfərova müracıət edirdilər, çünki Feyzi bəy onun şəxsiyyətinə də, peşəkarlığına və sərişt-əsinə də hörmət bəsləyirdi və Anna Viktorovnaya isə xüsusi hörmət var idi.

Sən demə, Leninqrad da təzədən Sankt-Peterburq ola bilərmiş...

Kimin ağlına gələrdi?..

(Ardı 26-27-ci səh.)

KAŞEYİN

(Əvvəli 24-25-ci səh.)

Axmaq Molla Zeydulla deyir ki, sən familyanın axırındakı "ov"u at, təkcə Cəfər qalsın, guya bununcla Hekim Cəfərovun tərcümeyi-halı dəyişəcəkdi? Molla Zeydullanın hələ onun, yəni Hekim Cəfərovun atasının adının necə dəyişdirilməsindən xəbəri yox idi...

Bütün bunlar hamısı boş şeylər idi.

Hekim Cəfərov səhhətindən narazı idi, amma öz həyatından və taleyindən narazı deyildi: Anna Viktorovna olduqca təmizkar, əsəbləri sakit, qayğıkeş, mehriban bir insan idi və 1960-cı ildən ki, evlənmişdilər – düz 52 illydi – o vaxtdan özü bu tərəfə aralarında bir dəfə də nəinki dava-dalaş, heç söz-söhbət də olmamışdı və Hekim Cəfərov bunu çox yüksək qiymətləndirirdi. Oğlu da, qızı da ciddi adamlar idi, düzdür, Azərbaycanla demək olar ki, nə cismani, nə də mənəvi əlaqələri var idi, ancaq bu, Hekim Cəfərov üçün xüsusi bir qayğı mənbəyi deyildi, dünya onsuz da qloballaşmaya doğru gedirdi və yüz ildən, iki yüz ildən sonra nə azərbaycanlı, nə rus, nə ingiliis?

Hekim Cəfərov bu kənddə anadan olmuşdu, kəndin uşaqları, o cümlədən də Zeydulla ilə (indi molla olub və gül ilə bülbülün məhəbbətindən şeirlər yazır!) yelpələng uçura-uçura, çiladi çiləyə-çiləyə, dənizdə üzə-üzə bu kənddə böyümüşdü və Rusiyada yaşadığı vaxtlarda, əlbəttə, hərdən o günləri xatırlayırdı, rəhmətlik anasının bişirdiyi Azərbaycan xörəkləri, xüsusən plov üçün qəribsəyirdi, ancaq bütün bunlar elə bir problem deyildi ki, Hekim Cəfərov bunları dərd eləyib ürəyinə salsın.

Anna Viktorovna kulinariya kitablarına baxa-baxa Azərbaycan xörəkləri və təbii ki, bu xörəklərin ən məşhuru olan plovu bişirməyə çalışırdı və Hekim Cəfərov üzə vurmasa da, ilk vaxtlar Anna Viktorovnanın kitabda yazılanlara ciddcəhdə əməl edib bişirdiyi plovu güclə yeyirdi, çünki bu elə bir plov idi ki, elə bil, Qaçaq Nəbi boğazına qalstuk bağlayıb, başına da şlyapa qoyub, ancaq illər keçdikcə Anna Viktorovnanın bişirdiyi plova elə öyrənmişdi ki, Azərbaycana qayıtdandan sonra, bu dəfə da qohum-əqrəbanın, tanış-bilişin evində yediyi plovu bəyanmirdi, onun üçün ən gözəl plov Anna Viktorovnanın bişirdiyi plov idi.

Və həmin isti yay günü da Hekim Cəfərov günortaçağı evdə oturub pamidorlu vermeşil supunu yeyə-yeyə rusca:

– Anna,- dedi.- Ya s udovolstviyem poyel bi plov... ("Anna, mən məmnuniyyətlə plov yeyərdim...")

Anna Viktorovna artıq sulanmağa başlamış, ancaq yenə da çox gözəl olan göy gözləri ilə erinə baxa-baxa gülümsədi və dedi:

– Tolko v naçale sleduyuşeqo messyatsa... ("Ancaq gələn ayın əvvəlində...")

Bu mənada ki, təqaüdü gələn ayın əvvəlində, yəni beş-altı gündən sonra alacağıq və plov bişirmək üçün ət, ya toyuq da onda olacaq. Bugünkü supu isə Anna Viktorovna hələ bir həftə bundan qabaq həmişəki kimi qəssab Mirzəağadan aldığı təzə mal ətinin sümüklərinin suyunda bişirmişdi və Hekim Cəfərov bu cür bulyonda bişmiş pomidorlu vermeşil supunu xoşlayırdı. Onlar həmişə mal əti alırdılar, çünki qoyun əti nədənsə Anna Viktorovnanın qarnını ishala salırdı, buna görə Hekim Cəfərov da daha qoyun ətini yadırğamışdı.

Hekim Cəfərov çiyinlərini çəkdi və Anna Viktorovnanın həmişə elə bişirdiyi pamidorlu vermeşil supundan dolu bir qaşıq götürüb:

– Çto podelayeş?- dedi.- Pokuşaem prekrasniy sup... ("Nə etmək olar? Gözəl supu yeyərik...")

Xoruz döyüşləri adətən şənbə günləri günortaçağı, yay aylarında isə gün eylənden sonra, axşamüstü başlayırdı və həmin unudulmaz şənbə günü da İbad dayı axşama yaxın hava nisbətən sərin-ləyəndə kənd bazarının arxasındakı sahədə hazırlıq işlərini görməyə başladı.

Gödəkbor, tosmaraq, amma çox cəld bir adam olan İbad dayı bazarın gecə gözətçisi idi və bazarın arxasındakı o sahənin bu kişiyə heç bir dəxliyyəti olmasa da, özü-özünü "yer sahibi" təyin etmişdi ki, bu da "ev sahibi" kimi bir şey idi: döyüş meydanını hazırlayırdı, tamaşaçılarını hər birindən əlli qəpikdən tutmuş bir manatacan "yer pulu" yığırdı, elədə da mərc edənlərin pulunu yığırdı və mərci udan xoruz sahibi bu puldan da ona pay verirdi.

Bütün bunlar və bu qismdən olan lıaxır işlər öz yerində, ancaq İbad dayının kənd bələdiyyəsinə məxsus həmin sahəni istismar etməsi bununla bitmirdi, cıvə kimi daima hərəkətdə olan İbad dayı özətçi köşkündə saxladığı (və ora güclə sığışan) köhnə taxta mizi hıqqana-hıqqana köşkdən çıxarıb, döyüş meydanının yuxarı başına gətirirdi və arvadı Nisə xalanın dədə-babasından qalmış mis samovarı gətirib o mizin üstünə qoyurdu, arvadı Nisə xalanın kraxmalla tərtəmiz yuyub-ütüləndiyi süfrəni mizin üstünə sərirdi, stəkan-nəlbəki, qənd, evdə Nisə xalanın böyük ruh yüksəkliyi və xüsusi səliqə ilə doğradığı limon dilimləri düzürdü, kömür salıb samovarı qaynadırdı və susuzdamış azarkeşlərə stəkanı 30 qəpiyə, xoruzlar arası qarışdırıb, məzhəbi itirəndə isə fürsəti fətə verməyib 50 qəpiyə limonlu çay satırdı.

Beləliklə, İbad dayının şənbə qazancları pis olmurdu, amma Kaşey peyda olandan sonra, onun biznesi yeni bir məhərləyə keçdi, qazancı ikiqat, üçqat artdı, çünki Kaşeyin döyüşlərinə təkcə kənd adamları, sahil boyu tikilmiş İstirahət Mərkəzlərində dincələn turistlər yox, qonşu kəndlərdən də xeyli tamaşaçı gəlirdi və Nisə xala İbad dayının döyüşdən sonra tələsik evə gətirdiyi pulları heyecanla saya-saya həm əri, yəni İbad dayıyla qürurlanırdı, həm də sidq-ürəkdən:

– Allah Kaşeyin canını sağ eləsin!..- deyirdi, elə bil, Kaşey da xoruz yox, İbad dayı kimi bacarıqlı bir kişi idi.

Ancaq döyüş meydanındakı alış-veriş təkcə İbad dayının gətdikcə çiçəklənən biznesindən İbarət deyildi və xüsusən Kaşeyin şöhrəti ətrafa yayıldıqdan sonra hətta qonşu kəndlərdən də qovrulmuş tum, suda bişib üstünə duz səpilmiş qarğıdalı, dondurma satan yeniyetmə oğlanlar da bura gəlib bir-biri ilə rəqabət apara-apara alver edirdilər.

Adi günlər ki, İbad dayı gecələr bazardakı gözətçi köşkündə oturub növbəti şənbə günün eşqi ilə termos çayı içə-içə qarovulçuluq edirdi, bəzən xəyal onu qanadlarına alıb gələcəyə aparırdı və o zaman İbad dayı həmin gözəl xəyal aləmində döyüş meydanındakı alış-verişi tam inhisara götürürdü, meydandan bir az aralıdakı qoca, qollu-budaqlı badam ağacının köşgəsində qəssab Mirzəğanın kafesinə bənzəyən mənzil bir köşk qurub, mədəni da bir satıcı tapıb tumu da, qarğıdalını, dondurmanı da özü satdırırdı. Orda isti qutab, hətta kabab da bişirdirib satdırmaq olardı, indi sovet vaxtı deyildi ki, milisioner Səfər əlver üstündə sənə hədə-qorxu gəlsin, öyüd-nəsihət versin və bu yerdə birdən, elə bil, o kababın qoxusu İbad dayının xəyal aləmینə daxil olub, onu ayıldırdı. Bu zaman kişinin içindən bir səs gələrdi ki, bəsdir, İbad, artıq tamah baş yarar, amma bir az keçdikdən sonra özündən asılı olmayaraq kişi yenə o gözəl xəyal aləmینə daxil olurdu və bu dəfə qonşu kəndlərdən maşınla gəlib, maşınlarını o badam ağacının kənarında saxlayan azarkeşlərdən də maşın pulu yığmağa başlayırdı.

Və həmin unudulmaz şənbə günü da İbad dayı axşama yaxın "Ya Allah!"- deyib evdən çıxdı, döyüş meydanına gəlib həmişəki cidd-cəhd ilə torpağı yaxşıca tapdaladı, xoruzlar döyüşəndə tozanaq qopmasın deyə meydançaya su səpələdi və camaat da yavaş-yavaş yığışmağa başladı.

Əvvəlcə həmişəki kimi, tum, qarğıdalı, dondurma satan yeniyetmə oğlanlar gəldilər və onlar tez-tez dəniz kənarındakı istirahət mərkəzlərinə tərəf boylanırdılar, çünki onların əsas müştərilərі turistlər olurdu.

Avropadan, Yaponiyadan gəlmiş turistlər, çoxu qısa şort geymiş kişilər, qadınlar, uşaqlar öz dillərində hay-küy salasala xoruz döyüşlərinə baxırdılar və hər dəfə da onların ən sevimlisinə çevrilən, ən çox azarkeşlik etdikləri xoruz Kaşey olurdu. Kaşeyin o qədər fotoşəkilini çakmişdilər ki, yeqin, nəinki hansısa başqa bir xoruzun, heyvanın, heç Hollivud uldızlarının da o qədər fotosunu çakməmişdilər.

Turistlər Abşeron sahillərindəki İstirahət Mərkəzlərində dincələnə, Xəzərdə çimməyə, qumluqda günəşlənməyə gəlib, bir həftədən, on gündən sonra gedirdilər, onların yerinə təzələri gəlirdi, amma Kaşey sevgisi və Kaşey heyranlığı bu gəlib-getməklərdən asılı olmayaraq, həmişə turistlərlə birgə olurdu və burasına da qətiyyən şübhə yox idi ki, o turistlərin Abşeron xatirələrində Kaşeyin unudulmaz yeri var idi.

Kəndin yeniyetmə oğlanları da həmin şənbə günləri xoruz döyüşlərinə xüsusi həvəslə gəlirdilər və bu həvəslin əsas səbəbi Kaşey, bir də ki, turist qadınların çılpaq baldırları, nazik köynəklərinin altında hiss olunan liftçiksiz döşləri idi, amma Kaşey döyüş meydanında elə şücaətlər göstərirdi ki, hətta o kənd yeniyetmələri də o çılpaq baldırları, həyəcandan atılıb-düşə-düşə azarkeşlik edən o turist qadınların nazik köynəklərin altında ora-bura atılıb-tərpənən o döşləri müvəqqəti olaraq yaddan çıxarndılar.

Tamaşaçılar yığışdıqca, döyüş xoruzları da təşrif buyurmağa başladı. Sahibləri xoruzları karton siqaret, araq, xama, makaron qutularında – kim hansını taptıdısa, onda gətirdilər və qələn kimi da xoruzları qutudan çıxarıb çölə buraxırdılar və öz vəzifələrini yaxşı bilən bu professional xoruzlar hələ ki, bir-birini vecinə almayaraq, tamaşaçıların ayaqları arasında məğrur-məğrur gəzir, hər biri öz növbəsini gözləyirdi.

Adətən başqa xoruz sahibələrinin axhişi ilə Kaşeyin döyüşünü döyüşlərin axırına saxlayırdılar, çünki Kaşey döyüşəndən sonra tamaşaçıların sayı azalırdı və bu dəfə da əvvəlcə başqa xoruzlar döyüşməyə başladı. Xoruzlar tamaşaçıların dövrə vurduğu döyüş meydanına buraxılan kimi, bir-birinin üstünə atılırdı və çox zaman da bir-birinə eyni zamanda zərbə vururdu, hərəsi bir tərəfə aşırdı, sonra cəld qalxıb, təzədən bir-birinin üstünə sıçrayırdılar. Eldən düşüb, bu zərbələrə dözməyən məğlub xoruz meydandan qaçırdı və gücü çatdığı bir sürətlə tamaşaçıların ayaqlarının arasından keçib, uzaqlaşırdı. Bəzən elə olurdu ki, məğlub xoruzun heç qaçmağa da taqəti qalmırdı və bu zaman qalib xoruzun sahibi dərhal işə qarışırdı, öz xoruzunu qamarlayıb götürərək, məğlubu öldürməyə qoymurdu.

Həmin şənbə günü nəhayət ki, növbə Kaşeyə çatdı və döyüş meydanına girən Kaşey həmişəki kimi boynunu dik qaldırıb, bərkdən qanadlarını çırpa-çırpa, qart və həmin maqamlarda açıq-aşkar qorxunc qaqqıltısı ilə qaqqıldaya-qaqqıldaya meydanda dövrə vurdu. Döyüş meydanında beləcə dövrə vurmağı Kaşeyə heç kim, o cümlədən da Zərbala öyrətməmişdi və tamaşaçıların böyük həyəcanına və eləcə bir həyəcanla da səs-küyünə, alqışına səbəb olan bu mərasimi Kaşey öz fəhmi ilə nəmimsəmişdi.

Kaşeyin bu dəfəki rəqibi ilk dəfə idi bu döyüş meydanına gəlirdi və toyuq kimi çil-çil olan bu iri xoruz o qədər də əzəmətli görünmürdü, amma gözlərindən bütün dünyaya kin-küdurət və qəzəb yağırdı. Kaşey gözlərindən bu cür və bundan da artıq qəzəb yağan rəqibləri az görməmişdi və azarkeşlər də az şahidi olmamışdılar ki, özündən deyən bu cür zəhmli xoruzlar Kaşeyin qabağından qaçıb canlarını güclə qurtarırdılar.

İbad dayı pulu mərcləşənlərdən – onların böyük əksəriyyəti yenə da pulu Kaşeyin qələbəsinə qoymuşdu – yığdı və bundan sonra döyüş başladı, qaqqıldaya-qaqqıldaya meydanının üzbəüz künclərində qarşı-qarşıya durmuş Kaşey ilə Çil-Çil Xoruz bir-birinin üstünə atıldı.

Zərbala həmişəki kimi döyüş meydanının yuxarı başında çömelib siqaret çəkə-çəkə Kaşeyin işlətdiyi fəndlərə baxırdı və əlbəttə, bütün bu Kaşey azarkeşləri indi Zərbalanın döyüşən xoruzlara baxa-baxa nə fikirləşdiyini heç ağıllarına da gətirməzdilər, heç Zərbalanın özü də gözləməzdi ki, birdən-birə ağlına belə fikirlər gələ bilər. Düzdür, Zərbala ölüm-dirim döyüşünə başlamış xoruzlara baxırdı, amma həmin anlarda Gülbalanın sifəti qəflətən Zərbalanın gözlərinin qabağına gəldi və onun, yəni Zərbalanın beyninəndən belə bir fikir keçdi ki, xoruz döyüşü na qədər gözəl bir iş olsa da, hər halda içində bir qəddarlıq var idi, – xoruz olanda rə olar? – qan tökürdü və Gülbala üçün alınan o vitaminli import arzaqlarda nəsə Gülbalanın təmizliyinə yaraşmayan bir şey var idi, bəlkə Gülbalanın xəstəhal bir uşaq olması da elə bununla bağlı idi?

Adətən, Kaşey döyüşə girişəndən beş-altı, uzaq bəsi on dəqiqədən sonra, sifətindən, pipiyindən, saqqalından qan tökülən, bəzən də Kaşeyin dimdiyi ilə vurub gözünü çıxartdığı rəqib xoruz məğlub olaraq meydandan qaçırdı, qaçmağa taqəti olmayanda isə Zərbala özündən çıxıb tamam vəhşiləşmiş Kaşeyi qanadlarından tutub qaldıraraq rəqibindən güclə ayırıb qucağına alırdı, bir az sakitləşəndən sonra yenə boş meydana buraxırdı və Kaşey başını dik tutub meydandada dövrə vururdu, ancaq bu dəfə, elə bil, Kaşey Zərbalanın ağlına gələn fikirlərin ucbatından hələ ki, Çil-Çil Xoruzun öhdəsindən gəlmirdi, vaxt isə keçirdi.

Qartıldamaqdan səsləri batmış Kaşey ilə Çil-Çil Xoruz qanın-tərin içində bir-birinə hücum edirdi, sərt və iti dimdikləri ilə bir-birinə zərbə endirirdi, hər iki xoruz caynağını işə salırdı, sonra dal-dala addımlayaraq geri çəkilirdilər və hər dəfədə də, elə bil, onlara təzədən güc gəlirdi, yenə eyni qəzəb və hərisliklə bir-birinin üzərinə atılırdılar.

Zərbalanın ağlına gələn o fikirlərdən daha əsər-əlamət qalmamışdı və onun içini nigarançılıqla dolu bir həyəcan bürüməyə başlamışdı. Kaşeyin həmişəki sürətli qələbəsinə alışmış və yenə də bu qələbəni gözləyən tamaşaçılar isə Çil-Çil Xoruzun da gözləniləməz hünərini görən-

TALEYİ

dən sonra xorozların bir-birinə hücumunu daha artıq bir ehtirasla izləyirdilər, hətta bəzən Çil-Çil Xoruzun da hünərinə "əhsən!" deyirdilər.

Kaşey ilə Çil-Çil Xoruzun beləcə qarşılıqlı və qəzəbli həmlələri on beş dəqiqəni keçəndə Çil-Çil Xoruzun sahibi başındakı kepkanın dimdiyini qaldırıb, ali ilə istidən və həyəcandan tərləmiş alnını silərək:

– Su vaxtıdır!- dedi və öz xoruzunu qamarlayıb qucağına aldı, Çərbala da cəld yerindən sıçrayıb Kaşeyi qucağına götürdü.

Çərbala da, Çil-Çil Xoruzun sahibi də qarşı-qarşıdakı künclərdə yerə çömelib, hərə öz xoruzunun başını, sinəsini tumarlayırdı və xorozların da hər ikisi tövşüya-tövşüya dərindən nəfəs alır, pipikləri, saqqalları zədələnib qanamış başlarını o tərəf-bu tərəfdə-tərpədə bərəlmiş gözləri ilə ətrafa baxırdılar. Çərbala Kaşeyin ürəyinin döyüntüsünü ovucunda hiss edirdi.

İbad dayı hər əlində şərin su ilə doldurduğu iri dəmir fincan götürüb, tələsik birini Çərbalaya, o birini də Çil-Çil Toyuğun sahibinə verdi və Çərbala fincanı ondan götürən kimi, ağzına iri bir qurtum alıb Kaşeyin üzünə püskürtdü. Bir neçə dəfə belə edəndən sonra hiss etdi ki, Kaşeyin ürəyi yavaş-yavaş nisbətən sakitləşir və Çərbala dəmir fincanı kənara qoyub, cibindən çıxartdığı dəsmal ilə Kaşeyin qabağında havanı yelləməyə başladı.

Çil-Çil Xoruzun sahibi də suyu ağzı ilə öz xoruzunun sifətinə püskürəndən sonra dəsmal ilə havanı yelləyirdi və tezdən bəri çevirib açıq-aşkar taləş dolu qəzərlərlə Kaşeyə tərəf baxırdı.

Xoruzlar yenə döyüş meydanına buraxıldı və Abşeron kəndlərindəki xoruz döyüşlərinin həmin tarixi hadisəsi də elə bu vaxt baş verdi.

Kaşeyin ən şah fəndi bu idi ki, qaçaqaça rəqibinin ətrafında fırlanıb, qəfləton üstünə atılırdı və onun başını dimdikləri arasına alıb aşağı əyərək dırnaqları ilə üz-gözünə, boğazına, sinəsinə zərbələr endirirdi. Bədbəxt rəqib xoruz nəhayət ki, başını dartıb Kaşeyin dimdiklərinin arasından çıxarmağa nail olduqda dişipiyinin, bəzən deşilmiş gözünün, saqqalının qanı axa-axa raket sürəti ilə meydandan qaçırdı. Ancaq bu dəfə hər şey qəfləton və tamam əksinə oldu: Çil-Çil Xoruz qəzəbə onun üstünə atılan Kaşeyin başını elə havadaca qapıb dimdiklərinin arasına aldı və bir göz qırpımında Kaşeyin boynunu əyərək başını yerə dirədi, caynaqları ilə Kaşeyin boğazını, sinəsini dağıtmağa başladı.

Bu heyrətamiz hadisənin ani hipnozundan ayılan tamaşaçılar qışqırıq saldı:

– Ələ, bu öldürdü ki, Kaşey!

– Ələ, öldürdü el!..

– Ələ, görmürsüz, qoymuyun də!..

Və Çil-Çil Xoruzun sahibi sıçrayıb öz xoruzunun qanadlarından yapışaraq yuxarı qaldıranda Kaşey bir neçə an başı rəqibinin dimdiyində salınca-sallana qaldı və elə ki, nəhayət, Çil-Çil Xoruzun dimdiyindən qurtulub tappıltıyla yerə düşdü, dəhşətli bir vahimə içində öz şanşöhrətinə yaraşmayan imdad qaqqıltısı çıxara-çıxara döyüş meydanından qaçaraq, tamaşaçıların ayaqlarının arasından qıvrılıb badam ağacı tərəfdə gözdən itdi.

Tamaşaçıların arasında sükut çökmüşdü və bu sükut içində ancaq Çil-Çil Xoruzun qəzəbli qaqqıltısı eşidilirdi.

Bu da bir qəribə iş idi ki, kənd camaatının simsiz, telefonsuz, kompütersiz öz teleqrafı var idi və kəndin o başında nə baş verirdisə, bu başında o saat xəbər tuturdular. O tarixi şənbə günü də Çərbala badam ağacının arxasında özünü yerə qısıb gizlənmiş və elə bil, bu dünyada ancaq onu, yani Çərbalanı gözləyən, üzgözü, boğazının, sinəsinin tükləri qana bulaşmış Kaşeyi qutuya qoyub eva gətirəndə Əminə artıq hadisədən xəbərdar idi.

Əminə bəlkə də heç vaxt bu dərəcədə nigarançılıq içində olmamışdı, Çərbalada isə elə bir hissiyyat var idi ki, elə bil, Çil-Çil Xoruzun dimdiyindən tappıltıyla yerə düşən Kaşey yox, ele onun özü idi – şəşırmağı bir tərəfə, bütün bədəninə bir əzginlik var idi və Çərbalaya ürəyinin ən dərinlərinə qədər təsir edən Kaşeyin məğlubiyyətindən də artıq, xoruzun biyabırçılıqla döyüş meydanından qaçması idi.

Əminə ərinə kömək edə-edə səssizsəmirsiz büzüşüb kardon qutunun küncünə qısılmış Kaşeyi qutudan çıxaranda:

– Ay aman!...- dedi.- Bu nə gündü belə?!.

Və həmin şənbə axşamından sonra Çərbalanın cidd-cəhdi öz yerində, amma əvvəllər ancaq Gülbalanın sağlamlığı ilə məşğul olan Əminə də vaxt tapan kimi cani-dildən Kaşeyə qulluq etdi və üçdörd günə Kaşeyin yaraları qayaq bağlayıb sağalmağa başladı.

Parlaq döyüş tərcümeyi-halında ilk dəfə məğlub olan Kaşey, deyəsən, o məğlubiyyəti də, o biyabırçılığı da çox tez yaddan çıxarmışdı, yenə əvvəlki kimi sübh tezdən öz banı ilə ətrafı lərzəyə salırdı və başını dik tutub şəstlə həyətdə gəzişirdi.

Azarkeşlər səbirsiz bir maraqla Kaşeyin yolunu gözləsələr də, İbad dayı bir neçə dəfə Çərbalagilə gəlib qaqqıldayaqaqqıldaya şəstlə həyətdə gəzən Kaşeyə baxaraq:

– Maşallah, Çərbala, sən öləsən, bu, əvvəlkindən də boyevoydur!..- deyə ürək-dirək versə də Çərbala növbəti şənbə günü Kaşeyi döyüş meydanına aparmadı.

– Qoyginən bir az da kəçsin...- dedi.

Düzdür, hərtə başa çatmışdı, xərclə-mək üçün evdə daha pul qalmamışdı, ancaq Əminə də Çərbalanın bu qərarına bir söz demədi, hefteni birtəhər başa vurdular və Çərbala Kaşeyi yalnız o biri hefteni şənbə günü döyüş meydanına apardı.

İbad dayının kefi kök idi, çünki bir tərəfdən hava çox isti idi və tamaşaçılar da hələ xoruz döyüşləri başlamamış badam ağacının kölgəsində stəkanı 50 qapiyə xeyli limonlu çay içmişdilər, o biri tərəfdən də Kaşeyin yenidən döyüş meydanına qayıtması azarkeşlərdə böyük ruh yüksəkliyi yaratmışdı ki, bu da öz növbəsində İbad dayının enerjisini ikiqat artırmışdı və o ruh yüksəkliyinin döyüş meydanında yaratdığı aura İbad dayıya gələcəyin gözəl günəşli üfüqlərindən xəbər verirdi.

Kaşeydən əvvəl iki cüt xoruz döyüşdü və tamaşaçılar bu döyüşləri adi maraqla qarşıladı, ancaq elə ki, növbə Kaşeya çatdı, elə ki, Çərbala qucağındakı Kaşeyin başını, boynunu, belini tumarlaya-tumarlaya onu döyüş meydanının küncündə yerə buraxdı və elə ki, Kaşey boynunu dikəldərək sinəsini irəli verib qanadlarını şappıldatdı, elə bil, döyüş meydanından bir dalğa keçib tamaşaçıları cuşa gətirdi. Kaşey öz ənənəsinə sadiq olaraq eləca başı dik, sinəsi irəli, qanadlarını şappıldadaşappıldada meydançada dövrə vurdu və iki həfte əvvəlki o mağlubiyyətdən sonra Kaşeyin öz məşhur mərasimini bu cür şəstlə icra etməsi tamaşaçılara, xüsusən Kaşeyçi azarkeşlərə daha artıq bir ruh verdi.

Sahibi rəqib xoruzu da qarşıdakı küncdə yerə buraxdı. Gözünün biri güclə açılan bu qoca xoruz, görünür, çox döyüş keçirmişdi, pipiyi, saqqalı dimdik zədələrindən o qədər deşilib sağalmışdı ki, çopur-çopur olmuşdu, sinəsinin tükləri çox yonulduğu üçün adda-budda dərisi görünürdü və bu xoruzun görkəmi Kaşeylə müqayisədə açıq-aşkar uduzurdu.

Qoca xoruz yerindən tərpənməyərək qanadlarını bir-iki dəfə şappıldatdı və boğazını arıtlayıb çox qart bir səslə bərkdən qaqqıldadı.

Və ağlasığmaz o hadisə də elə bu zaman baş verdi: qoca xoruzun o qaqqıltısını eşidən kimi Kaşey yerindən götürüldü və gözgörəti bir panika içinə meydandan qaçıb sürətlə tamaşaçıların ayaqlarının arasından keçərək yenə də badam ağacı tərəflərə gözdən itdi.

Bu o qədər gözlənilməz bir iş oldu ki, hamı mat qalıb yerində donmuşdu və araya çöken o ani sükutu Müzəffər müellimin səsi pozdu:

– Ələ, Çərbala, belə nöş oldu, ələ?

Və Kaşeyin bu şərəfsiz qaçışı onun qazandığı o böyük hörmət və nüfuzu bircə anın içində yerə vurdu.

– Ələ, bu lap əfəliymiş ki!..

– Pay atonan!..

– Bu neydi, ələ?

– Kaşey ağciyər çıxdı!..

Stomotoloq Feyzi bəy İstanbuldan gəlib "Cənnət-mənə" İstirahət Mərkəzində işləməyə başladığı vaxtdan etibarən həmişə çalışırdı ki, Azərbaycan ləhcəsinə danışsın, ancaq bu hadisə stomotoloqu elə sarsıtmışdı ki, bu dəfə Anadolu ləhcəsinde:

– Ölümsüz Kaşey kalbine sahib çıkammadı!..- dedi və yerində donub mat-mat gözünü döyən Çərbalaya baxaraq böyük bir təəssüflə əlavə etdi: – Kardeşim, bu dünyada ebedi bir şey yok!.. Keçmiş olsun!..

Vaxtı ilə bir il ərzində atasını, anasını, sonra da bacısını itirən Anna Viktorovna özü öz fikirlerini təsdiq edərək, ürəyində deyirdi ki, elədir, bədbəxtlik gələndə dalbadal gəlir və aydın məsələdir ki, Çərbala Anna Viktorovnanın nə fikirləşdiyindən xəbərdar deyildi, ancaq sən demə, Çərbala üçün də bədbəxtlik həmin şənbə axşamı Kaşeyin döyüş meydanından o şərəfsiz qaçışı ilə qurtarmışmış, bədbəxtlik – hələ irəlidəymiiş.

Elə ki, Kaşey camaatın gözü qabağında döyüş meydanından o cürə qaçdı və növbəti xoruzlar meydana atıldı, Çərbala daha orada qalmadı, qutunu götürüb həyəcandan və sarsıntıdan titrəyən addımlarla badam ağacına tərəf getdi, ağacın yoğun gövdəsinin arxasında yenə də yerə sinib gizlənmiş Kaşeyi bir qanadından qaldırıb qutuya atdı. Kaşey gözlərini yumub səsini çıxarmadı, elə bil, özü öz biabırçılığından utanırdı, ancaq Çərbala daha bunun fərqində deyildi.

Təbii ki, Əminə xoruz döyüşündəki biyabırçılıqdan xəbərdar idi və Çərbala ələndə qutu həyətə girəndə bir söz demədi. Çərbala da bir söz demədi və Kaşeyi içindən çıxartmayaraq qutunu hinin qapısı ağzına tullayıb, təzədən çöl qapısına tərəf gedəndə Əminə sövq-təbii bir tələşlə soruşdu:

– Hara, Çərbala?

Çərbala qapıdan çıxa-çıxa:

– Gora!..- dedi.

Nəsillikcə qəssab olan qəssab Mirzəağa Azərbaycan qəssabları arasında bəlkə də, ən arıq adam idi, o qədər arıq idi ki, gicgahının, ənginin sümükləri də çıxmışdı və hər dəfə nəsə yeyəndə onun çeynəmə prosesi rentgen şəkili kimi adamın gözünün qabağında baş verirdi, ancaq bu dərəcədə arıqlıq nə onun ağır dəhrədən möhkəm yapışaraq başının üstünə qaldırıb, hətta öküz cəmdəyi parçalamağına mane olurdu, nə də onun işgüzarlığına.

Qəssab Mirzəağa mədəniyyətə xüsusi fikir verən, mədəni tədbirləri qiymətləndirən bir adam idi, özü kitab oxumasa da, kitab oxuyanlara hörməti var idi, azı ayda bir dəfə, bazar günləri həyat yoldaşını və övladlarını, gəlin və kürəkənlərini, bir sözlə bütün böyük ailəsini götürüb Bakı teatrlarında, xüsusən Musiqili Komediya Teatrında yeni tamaşalara baxmağa aparırdı və düzdür, Bakı teatrlarının bəzi artistləri hərdən onun bu teatr məhəbbətindən sui-istifadə edirdilər, xüsusən yay aylarında kafeya gəlib, müftə yeyib-içirdilər, ancaq qəssab Mirzəağa bundan maddi zərər çəksə də, mənən məmnun qalırdı.

Bir dəfə – üç-dörd il bundan əvvəl – artistlər Moskva teatrlarından hansınınsa Bakıya qastrol səfərinə gəlmiş bir artistini da özləri ilə Qəssab Mirzəağanın kafesinə gətirmişdilər və bir az yeyib-içəndən sonra o rus artist onun uzun və arıq barmaqlarına baxa-baxa:

– Vaşi paltsı poxoji na paltsı pianistov!..- demişdi ("Sizin barmaqlarınız pianoçuların barmaqlarına bənzəyir!..") və o çağdan etibarən Qəssab Mirzəağanın mədəniyyətə olan məhəbbəti daha da artmışdı, hərdən gözü öz barmaqlarına sataşanda kişinin içindən xoş və xəfif bir hiss ötüb keçirdi.

Bütün bunlara görə də kənd ziyalıları Qəssab Mirzəağanın simasında özlərinə layiq bir tərəf-müqabil görürdülər, hərdən Bakıdan gələn qonaqları ilə onun kafesinə xudmani məclis qururdular və Bakıdan gələn o artistlərdən fərqli olaraq pulunu da ödəyirdilər.

Qəssab Mirzəağa Sovet İttifaqı dağıldandan sonra qəssab dükanını özələşdirmişdi və burada həmin kafeni açmışdı. Bir küncü kafelletdirmişdi, orada üstü mərmərdən olan səliqəli bir pıştaxta düzəltdirmişdi və ət satılan yer də ora idi. Kafenin cəmi iki işçisi var idi ki, biri qəssab Mirzəağanın özündən, o biri də qayınanasından ibarət idi. Qayınana yalnız xəmir xörəkləri bişirirdi: düşbərə, qutab, xəngəl, gürzə, ciyər pərəşkisi və bu xəmir xörəkləri xüsusən xarici turistlər arasında çox şöhrət qazanmışdı. Bəzən məhəlle uşaqları, xüsusən imkansız ailələrdən olan uşaqlar kafeya girib, bir dənə isti pərəşki götürüb qaçırdı və belə anlarda Qəssab Mirzəağanın arıq sifətindən bir təbəssüm ötürdü, qayınanası narazılıqla ona baxanda:

– Allah əvəzini verəcək!- deyirdi.- Sən işində ol...

Qış aylarında isə Mirzəağa özü xaş bişirirdi və yalnız bu kəndin yox, bütün ətraf kəndlərin xaş həvəskarları onun bişirdiyi xaşı yüksək qiymətləndirirdi.

Qəssab Mirzəağa yay aylarında səhər saat 7-dən, xaş mövsümü başlayandan sonra isə 9-dan (səhər saat 7-də xaş dəsgahı başlayıb, 9-da sona yetirdi) günorta saat 12-yə kimi pıştaxtanın arxasına keçib təzə qoyun, mal əti satırdı. Dükanın qalan hissəsini isə səliqə ilə təmir etdirib kafe kimi işlədirdi və günorta saat 12-dən gecə saat 10-a kimi müştərilərə qəbul edib, yola salırdı.

Və həmin şənbə günü də artıq gecə saat 10-dan beş dəqiqə keçmişdi, qayınanası evə getmişdi, amma Qəssab Mirzəağa kafeni hələ bağlamamışdı, çünki on-on beş dəqiqə bundan əvvəl milisioner Səfər içəri girib soruşdu ki, hələ getmirsənsə, formanı dəyişib, gəlmək istəyirəm.

(Ardı 28-ci səh.)

(Əvvəli 26-27-ci səh.)

KAŞEYİN TALEYİ

Milisioner Səfər əynində forma olanda alkoqollu içki içmirdi, gecələr iş növbəsi bitəndə, hərdən kafenin qonşuluğundakı evində fomasını çıxarıb, mülki geyim geyib kafeyə gelirdi, adətən pendir-çörək, bir dənə pamidor, bir az da göy-göyərti ilə 150 qram araq içirdi və çox zaman da onun bədə dostu elə Qəssab Mirzəağanın özü olurdu, üzbəüz oturub İrandan-Turandan danışırdılar. Mirzəağa bütün günü müştərilərə qulluq edir və dilinə içki vurmurdu, elə ki, saat 10 olurdu, qapını bağlayıb, haqq-hesabını eləyəndən sonra ac qarnına 100 qram araq içib, üstünə bir neçə yemirdi (Mirzəağa, ümumiyyətlə, kafedə heç nə yemirdi – onun günorta yeməyini də arvadı evdə bişirib gönderdirdi), birbaşa evə gedib, mətbəxdəki mizin üstündə onun gelişini gözləyən yeməyi – arvadı onun üçün sevə-sevə nə bişirmişdisə, onu yeyirdi.

Qəssab Mirzəağa əvvəllər 100 qram araq içirdi, ancaq Feyzi bəy deyəndən sonra ki, içkilərin arasında ən az ziyan veräni tekiladır, araq əvəzinə 100 qram tekila içirdi və indi də milisioner Səfəri gözləyirdi ki, bədə dostluğu edib, 100 qram tekilasını onunla içsin.

Milisioner Səfər əynində mülki libas, içəri girəndə onun 150 qram arağı, pendiri, bir dilim çörəyi, səliqə ilə doğranmış bir dənə pamidoru və bir az göy-göyərtisi də, qəssab Mirzəağanın 100 qram tekilası ilə bahəm mizin üstündə hazır vəziyyətdə dayanmışdı.

Hələ lap cavanlıq çağlarından etibarən həmişə arağı qədərində içən, hər vaxt həddini keçməyən və yaqin elə bunna göra də arağın qədrini bilən Milisioner Səfər ləzzətlə mizin üstündəki o 150 qram arağa və o taamlara baxdı, sonra Qəssab Mirzəağa ilə üzbəüz əyləşdi.

Qəssab Mirzəağa nazik və uzun barmaqları ilə öz qədəhini götürüb:

– Qaldır görək!..- dedi və milisioner Səfər də öz qədəhini qaldırandan sonra, gözü ilə qədəhlərə işarə edərək: – Bunlar gedən yerə azar-bezar getməsin!.. dedi.- Sənün sağluğuva!

Bu xudmani məclisin hərarətli Milisioner Səfəri cuşa gətirmişdi və buna görə də daha artıq kələləyə-kələləyə:

– Sə-sə-sənün sa-a-ağluğuva, qə-qə-qədəş!- dedi, ancaq onlar qədəhləri bir-birinə vurub, içməyə macal tapmamış, qapı açıldı və Zərbala içəri girdi.

Bu qəfil gəliş açıq-aşkar Milisioner Səfərin də, Qəssab Mirzəağanın da ürəyindən olmadı və Milisioner Səfər gözlərini Zərbaladan çəkib, Qəssab Mirzəağaya baxdı, hər halda, burnın yiyəsi Mirzəağa idi, ancaq Mirzəağa bir söz deməmiş, Zərbala dili dolaşa-dolaşa:

– Qədəş.. bir şüşə soyuq pivə... bir dənə... pivə verərsən mənə?- dedi.

Qəssab Mirzəağa səliqə-sahmanlı adam idi və gecə saat 10-dan sonra heç kimə qulluq etmirdi, ancaq bu gecə, görünür, bir tərəfdən Kaşeyin o rüsvayçılığının şahidi olduğu üçün, o biri tərəfdən də Zərbalanın üreyinin yanğısını aşıkar hiss etdiyi üçün, bir söz demədi, elində ki qədəhi mizin üstünə qoyub, ayağa qalxdı və yüz faiz əmin olsa da ki, Zərbalanın cibində bir qəpik də yoxdur, hançansa da bu pivənin pulunu verib-verməyəcayi məlum deyil, soyuducudan bir dənə dəmir qabda "Efes" çıxarıb ona uzatdı:

– Alagnə...

Ancaq stomotoloq Feyzi bəy demişkən, moralı pozulmuş Milisioner Səfər bu dəfə özünü saxlaya bilmədi və Sovet vaxtlarında olduğu kimi aşkar bir hədə ilə:

– Ələ, Zə-zə-zərbala,- dedi.- A-a-ala, yenə ba-ba-başladun sən?

Haqiqətən də, elə ki, Zərbala Kaşeyi qutusu ilə birlikdə hinin yanına atıb həyətdən çıxdı, keçmiş zamanlarda olduğu kimi, ayaqları onu tamam mexaniki, tamam qeyri-iradi arağa doğru apardı və dükandan bir yarımlitrlik araq alıb, dənizkənarındakı qayalığa gəldi.

Bu qayalıqda adətən lap yüngülcə də olsa bir külək əsərdi. Hatta o yüngülcə külek əsəndə də ləpələr qayalara çırpılırdı və gecə vaxtı tamam boşalmış bu sahil sakitliyini yanlız onların şappıltısı pozurdu. O şənbə gecəsi buralarda heç meh də əsmirdi və qayalığı bürümüş o sükunət, ele bil, havanın bürküsü ilə birlikdə dünyanın kədərli-qüssəli işlərindən xəbər verirdi.

Oturub, kürəyini iri bir qaya parçasına söykəmiş Zərbala araq şüşəsindən qurtum-qurtum içərək heç nə bərədə fikirləşmirdi, sadəcə, o bomboş sahilin səssizliyinə qulaq asırdı. Hərdənbir "Cənnət-məkan" tərəfdən turist cütlüyü – oğlan və qız – görünür, qayalıqda xəlvəti bir yer seçmək arzusu ilə ay işığında romantik tərzdə bu tərəfə yaxınlaşırdı, ancaq qəflətən Zərbalanı görən kimi, tələsik uzaqlaşırdılar.

Zərbala qətiyyən bunun fərqində deyildi, qurtum-qurtum araq içə-içə gecələr nadir hallarda beləcə sakit olan dənlərə baxırdı və bəzən o arağın iyinə, ele bil, onun dərman torbasının qoxusu qarışırdı.

Əvvəllər 150 qram araqdan keflənən Zərbala bu dəfə yarım litr araq şüşəsini qurtum-qurtum boşaltsa da, kefli deyildi; kefli deyildi, amma key idi, ele bil, beynində qatı və ağır bir duman var idi və bütün olub-keçən də, bütün ətraf da o qatı və ağır dumanın içində idi. Ayaqları onu sərin pivə həsrəti ilə Qəssab Mirzəağanın kafesinə gətirəndə Milisioner Səfərin dediyi sözlər də o dumanın içindən eşidilirdi və mənası da aydın deyildi.

Zərbala ele ayaq üstə pivəni içməyə başladı və içdikcə də onun bütün içinə rahat bir sərinlik yayılırdı, ağzının qıraqlarından süzülən pivə damcıları çənəsinə, boğazına axıb, ele bil, onu o şənbə gecəsindən qoruyurdu.

Və bu vaxt İbad dayı hövlnak içəri girib, kafenin ortasında ayaq üstə pivə içən Zərbalanı gördü:

– Ala, ay badbəxt, sən burdasan? Ala, səni axtarmadığım yer qalmıyıb el!.. Ala, Gülbala ölür e, ay badbəxt!..

... Zərbala tövşüyə-tövşüyə otağa girəndə Gülbala çarpayıda uzanmışdı, Əminə də, Əminənin köməyə çağırdığı Nisə xala da çarpayının kənarında oturmuşdular və Nisə xala termometri uşağın qoltuğundan çıxarıb baxaraq qışqırdı:

– Vaxseyl!.. 41-i keçib!.. Ay aman!.. Uşaq eldən gedir!..

Əminə, ele bil hələ heç nə başa düşməyən Zərbalanın üstünə çığırdı:

– Həkim!.. Həkim!..

Zərbala həyətdəki qoca əncir ağacının altında yerə çömelib, elindəki siqaretdən dərin qullab vura-vura və o qədər tüstünün hamısını da içinə çəkə-çəkə heç cürə gözlərinin qabağından qovu bilmədiyi balaca bir mafeyə baxırdı. Gözlərini yumurdu, açırdı, başını silkələyirdi, amma o mafə kût bir tərslikə onun gözlərinin qabağından getmirdi və hər dəfə Zərbalanın beyninden dəhşətli bir fikir keçəndə ki, sabah Gülbalanı beləcə balaca bir mafedə kəndin qəbirstanlığına aparıb torpağa basdıracaq, onun bütün bədəni uçunurdu.

Bayaq Əminənin o çığırtısından sonra yerindən götürülən Zərbala var gücü ilə Həkim Cəfərovgilə çaqdı. Həkim Cəfərovun evi onlardan üç məhəllə kənarda, sahil tərəfdə idi və adətən erkən yatıb, erkən duran Həkim Cəfərov yenicə soyunub yerinə girmək istəyirdi ki, həmişə – hərdən lap gecənin yarısı da – arini xəstə üstünə çağırmağa gəlmiş insanlara qayğı ilə yanaşan Anna Viktorovna yataq otağının qapısını açdı:

– Aqa Kərimoviç, posetitel prişel. ("Ağa Kərim oğlu, səni istəyirlər.")

Həkim Cəfərov Anna Viktorovnanın yuyubütülləyi pijamasının şalvarını geyib ikinci mərtəbədə həyət qapısına çıxanda Zərbala həyətdəki işıq dirəyinin yanında dayanmışdı və Həkim Cəfərov ancaq sifətdən tanıdığı bu kənd sakininin elektrik işığında bərəlib, az qala hədəqəsindən çıxan gözlərini görüb:

– Nə məsələdi?- soruşdu.

Zərbala səsi titrəyə-titrəyə:

– Oğlum ölür!..- dedi.

Anna Viktorovna Azərbaycan dilini bilməsə də, Zərbalanın səsindən, görkəmindən çox təsirlendi və:

– Pomaqi yemu, Aqa Kərimoviç!..- dedi. ("Ona kömək et, Ağa Kərimoviç!").

Həkim Cəfərovun əsil adı Ağakərim idi, ancaq Rusiyada yaşadığı vaxtlar hamı, o cümlədə də Anna Viktorovna onu "Aqa Kərimoviç" deyə çağırırdı və vaxtilə sovet pasportunda da belə yazılmışdı: "Aqa Kərimoviç Djafarov". Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra o qırmızı pasportlar ləğv olunub, şəxsiyyət vəsiqəsi alanda da ele bu cür yazıldı; rəhmətlik atası Hüseynqulunun adı Həkim Cəfərovun nə pasportuna düşmüşdü, nə də indiki şəxsiyyət vəsiqəsinə.

Həkim Cəfərov tələsik geyindi, qırx ildən artıq idi ki, sədaqətlə ona xidmət edən və ilk tibbi yardım üçün nə lazımıyıdısa, hamısını içinə yığdığı portfeli elinə alıb Zərbala ilə birlikdə həyətdən çıxdı.

... Zərbala sayıqlaya-sayıqlaya qıcırdırmanın içinde yanan Gülbalanın yanında dayanmağa ürək etmədi, buna cürəti çatmadı və indi yarım saatdan da çox idi ki, əncir ağacının altında yerə çömelib, siqaret çəkə-çəkə yenə gözlərinin qabağından getməyən o balaca mafəyə baxırdı.

Həkim Cəfərov nahayat ki, elinde həmin məşhur portfeli, otaqdan çıxdı. Zərbala yerindən atılıb onun qabağına gəldi və bu vaxt Həkim Cəfərovun hər gün qırxdığı tərəmiz sifətindən yüngül bir təbəssüb ötüb keçdi:

– Elə bir şey yoxdu,- dedi.- Anginadı. İynədən sonra qızdırması düşdü. Keçib gedecək...

Zərbalanın beynindəki o qatı və ağır duman əriyib yox oldu, indi de aksine, onun beyni, ele bil, saat idi, nəbzi ilə vura-vura sürətlə işləyirdi və Zərbala avvəlcə Həkim Cəfərovun boynuna atılıb, onu qucaqlamaq, kişinin o üzündən, bu üzündən öpmək istədi, ancaq beyni onu saxladı.

Qəssab Mirzəağa düz müəyyən etmişdi, Zərbalanın cibində bir qəpik də pul yox idi və ümumiyyətlə, ondə ə bir qəpik qalmamışdı, ancaq Həkim Cəfərovu əliboş yola salmaq, həmin anlarda Zərbala üçün dünyanın ən xəcalətli bir işi idi.

Bu vaxt axşamdan bəri qutunun içinde hinin yanına atılmış Kaşeyin zəif qaqqıltısı eşidildi və Zərbala bir anın içinde qaçıb o qutunu yerdən qaldırdı, Həkim Cəfərovun yanına qayıdıb:

– Allah süzün də balalaruvuzu həmişə salamat elesünl- dedi və qutu qucağında Həkim Cəfərovun arxasına düşüb, onu evlərinəcan müşayiət etdi.

Həkim Cəfərovun evinə çatanda Zərbala qutunu həyətdəki işıq dirəyinin yanında yere qoyub:

– Bu, sizündü, hakim.- dedi.- Çox sağ olun. Allah canuvuzu sağ elesünl Allah sizü bizim başımuzun üstünnən əskik eləməsün!..

Zərbala Həkim Cəfərovun həyət qapısından çıxanda bayaqdan bəri bütün yol boyu səsini çıxarmayan Kaşeyin, elə bil ki, zəif qaqqıltısını eşitdi, bəlkə də Zərbalaya ele geldi, ancaq bunun daha heç bir mənası yox idi.

Anna Viktorovna ərini qarşılamaq üçün gecə köynəyində şüşəbəndin qapısı ağzına çıxmışdı və Həkim Cəfərov direyin altındakı iri kardon qutunu göstərərək:

– Pojaluysta, Anna Viktorovna.- dedi.- Vot vam kuritsa dlya zavtraşneqo plova!.. ("Buyur, Anna Viktorovna, bu da sabahkı plov üçün toyuq!..")

Sonra Həkim Cəfərov əllərini sabunlayıb həmişəki cidd-cəhdlə yuya-yuya fikirləşdi ki, qutunun yekəliyindən böyük quşa oxşayır, bəlkə üzbəüz qonşuları Müzəffər müəllimi də sabahkı plova qonaq çağırsın?

Məsələ burasında idi ki, deputat seçkilərində Həkim Cəfərov Müzəffər müəllimin eleyhinə səs vermişdi, çünki belə məsələlərdə prinsipial adam idi, hesab edirdi ki, Müzəffər müəllim Azərbaycan Respublikasının maraqlarını qoruya bilməzdi, çünki belə intellekt sahibi deyil və buna görə də Azərbaycan Respublikasının maraqlarını qonşuluq maraqlarına qurban vermişdi. Ancaq axır vaxtlar Həkim Cəfərova ele gəlirdi ki, deyəsən, Müzəffər müəllim ondan şübhələnib, buna görə de onu qonaq çağırsa, pis olmaz, hər halda, qonşudur...

Həkim Cəfərov bu barədə qəti qərar vermədi, fikirləşdi ki, qərarı sabah verər, "utro veçera mudrenyeye – trava solomı zelenyeye" (yəni ki, "gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır"). Bəlkə stomotoloq Feyzi bəyi de plova dəvət edə, çünki hər dəfə görüşəndə Feyzi bəy deyirdi ki, Azərbaycan xörəklərindən dünyada yoxdur, qoy, görsün ki, Anna Viktorovna necə plov bişirir.

Həkim Cəfərov bu məsələnin de həllini sabaha saxladı və soyunub yerinə girdi.

Həkim Cəfərov yerinə girən kimi, yuxuya gedirdi və bu dəfə de ele oldu.

Gecə qonşu kəndde yas məclisini yola verib, eve gec gəlib, gec de yatmış Molla Zeydulla səhər saat 5 radələrinde eve yuxuda ikən yerinde qurculana-qurculana təhtəlşüur olaraq o bədniyyət xoruzun banını gözledi, amma xoruzun banı gelmedi və Molla Zeydulla gözünün birini açıb diqqetle qulaq asdı: yuvalarında oyanmış quşların və sahildeki qayalığa deyen deniz lepelerinin – get-gede bərkiyen külek esmeye başlamışdı – yeknəsəq şappıltısından başqa bir səs yox idi.

Molla təzedən gözlərini yumub yatmaq istədi, amma yerinde na qədər o tərəf-bu tərəfe qurcalandısa da heç vəchə yata bilmedi və bu vaxt, ele bil, qeybden bir səs geldi ki, Zeydulla, dur, Zərbalanın həyatına bax, gör, o bədniyyət xoruz niye banlamır.

Molla Zeydulla yerinden qalxıb, yayqış yatanda həmişə eyninde olan ağ çit tuman-köynekle şüşəbendin açıq pəncərəsine yaxınlaşdı və Zərbalagilin həyatine tərəf boylandı.

Zərbala qoca əncir ağacının altında oturub siqaret çəkirdi.

Molla Zeydulla şüşəbənddən qışqırdı:

– Ələ, Zərbala, Kaşey hardadı?

Və Zərbala da cavab verməyib, ele bil, Molla Zeydullanın elə bu sözlərini gözləyirdi, burnunu çəkə-çəkə yavaşdan ağlamağa başladı.

30 iyun 2012.
Zağulba.